Nəzakət Qafqazlı42

# CƏLİL MƏMMƏDQULUZADƏNİN "ÖLÜLƏR" PYESİ DÖVRÜNÜN ƏDƏBİ-TƏNQOD AYNASINDA

"Ölülər" pyesi tamaşaya qoyulduğu ilk gündən tənqidin diqqətini cəlb etmiş, geniş söhbətlərə, kəskin mübahisələrə səbəb olmuş, Bakı və Tiflis mətbuatında bir-birinin ardınca müxtəlif mövqeli tənqidçilərin "Ölülər"ə həsr etdikləri məqalələr dərc olunmağa başlamışdı. "Ölü fikirləri diriltdən" (S.Qənizadə) "Ölülər" kimi bir əsərə tənqidin dərhal diqqət yetirməsi, ondan sərf-nəzər etməməsi əsrin əvvəllərində Azərbaycanda mütərəqqi ədəbi fikrin çevikliyinə, məfkurəvi və nəzəri fəallığına dəlalət edirdi.

Sonrakı dövrlərdə elmi-nəzəri fikrimizdə "Ölülər"ə maraq daha da artdı. C.Məmmədquluzadənin bu böyük əsəri, eləcə də bütünlükdə yaradıcılığı bir çox ədəbiyyatşünas alimlərimizin geniş tədqiqat obyektinə çevrildi.

Lakin əldə edilən olduqca əhəmiyyətli nəticələrlə yanaşı, onu da etiraf etməmək olmaz ki, bütünlükdə "Ölülər" kimi klassik bir əsərin elmi şərhində olduğu kimi, onun XX əsr teatr tənqidindəki ilk təhlilində hələ aydınlaşdırılmasına ehtiyac duyulan məsələlər az deyildir.

"Ölülər" haqqında ilk tənqidi mülahizə əsərin səhnə təcəssümündən çox-çox əvvəl söylənilmişdir. H.Minasazov hələ 1909-cu ildə Tiflisdə çıxan "Zakavkazye" qəzetində geniş bir məqalə çap etdirmişdir.(13;1909-cu il, №176) O vaxt C.Məmməd-quluzadə Tiflisdə yaşayırdı və çox güman ki, komediyanın ilk variantını dostu Hüseyn Minasazova oxumağa vermişdi. İstedadlı tənqidçi qələmindən çıxmış həmin məqalədə əsərin məzmununun yığcam şərh edilməsi və "müsəlman aləminin canlı, maraqlı panoramını görmək istəyirsinizsə, mütləq tatar (Azərbaycan – N.Q.) pyeslərini oxuyun və yaxud tamaşa edin" sözləri hələ tamaşaya qoyulmamış əsər haqqında oxucularda maraq oyadırdı. Əlamətdardır ki, tənqidçi aşkar rəğbət hissi ilə haqqında söhbət açdığı "Ölülər"in əsas məziyyətini onun realizmində – xalq həyatını dürüst əks etdirməsində görmüşdü. Müəllif "sadə, anlaşıqlı dildə yazılmış, nöqsansız tipləri olan son dərəcə həyati" komediyanın ilk və tamamilə dəqiq şərhini verir, onu "kaleydoskop" adlandırır və oxucuları əmin edir ki, onlar cəhalət və fanatizmi, ruhaniliyin "müqəddəsliyi" qarşısında kor-koranə diz çökməyi, çoxarvadlılığın dəhşətlərini və sairəni bütün sərrastlığı ilə müşahidə edə biləcəklər. Tənqidçi göstərir ki, C.Məmmədquluzadənin bu "kədərli və həyati" olan komediyasında tamaşaçılar hüdudsuz kütlüyün zülmət guşəsində qərq olan və öz vəziyyətlərinin dəhşətini dərk edə bilməyən insanların "faciəsini" görəcəkdir.

İskəndər surəti "Ölülər" pyesinin baş qəhrəmanı olduğu kimi, əsər ətrafında getmiş mübahisə və söhbətlərin də əsas hədəfini təşkil etmişdir. Komediyanın istər mündərəcəsi, istərsə də sənətkarlığı ilə bağlı bütün əsas xüsusiyyətləri – realizminin gücü, humanist mahiyyəti, həyatiliyi, konfliktin tipikliyi, həmçinin janr xüsusiyyəti məhz İskəndərlə əlaqədar olduğu üçün tənqid də ən çox bu surət üzərində dayanmışdır. Tənqidi fikrin İskəndərə münasibəti əslində bütövlükdə əsərə münasibəti kimi mənalanırdı.

C.Məmmədquluzadə "Ölülər" pyesində onu düşündürən, ürəyini ağrıdan dərdləri əsasən İskəndərin dili ilə demişdir, onu bir növ öz fikirlərinin bədii ifadəçisinə çevrilmişdir. Buna görə dəəsərdə baş qəhrəmanın ifşaçı mövqeyi əslində C.Məmməd-quluzadənin öz barışmaz mövqeyi idi. Doğrudur, əsər boyu İskəndər Şeyx Nəsrullahlar, Hacı Həsənlər, Heydər Ağalar mühitinə qarşı, demək olar ki, açıq və müstəqim çıxış etmir, yeri gələndə atmaca sözlərə, kinayə və gülüşə meydan verir. Lakin bu atmacalarda, zarafat və kinayə ilə, tənqidi münasibətlə deyilmiş sözlərdə, oxucunu, tamaşaçını düşündürən ən dərin, ən incə mətləblərin gizləndiyini görürük. İlk tənqidi mülahizələrdə komediyanın həmin qüvvətli cəhəti dəqiq müşahidə edilmişdir: "Bu qaranlıq mühitdə bir ulduz parlayır, o da iyirmi iki yaşlı ali təhsilli İskəndərdir. Tamaşaçı bütün əsər boyu İskəndərin qaranlığı əridən ildırımlı, şimşəkli qəhqəhələrini, paslanmış beyinlərin paxırını açan ağıllı sözlərin, din, şəriət adından alver edən lotuların maskasını yırtan öldürücü kinayələrini eşidir". (6; 2 may 1916)

"Ölülər" əsəri feodal cəmiyyətinə kəskin bir ittihamnamə idi. Dövrün mütərəqqi tənqidi də əsərə verdiyi yüksək qiymətində bu vaqeənin ağıl və fikirlər üzərinə böyük təsirlər icra edəcəyinə (Seyid Hüseyn) dərin inamını bildirir, ümid və iftixar hissi ilə yazırdı ki: Ustadanə qələm ilə yazılmış bu pyes ictimai işlərimizdə mühüm bir fəqərəni göstərir (7;7 may 1916). "Şeyx Nəsrullahın ölüləri diriltməsi yalansa da, "Ölülər"in ölü fikirləri diiriltməsinə şübhə edilə bilməz"(9;1 may 1916).

"Ölülər"in tamaşasının ilk geniş təhlili Seyid Hüseynin məqalələrində öz əksini tapmışdır (10;2 may, 5 may 1916). Bu məqalələrdə demək olar ki, əsərdə qoyulan əsas məsələlər əhatə olunurdu. Doğrudur, tənqidçinin mülahizələrində birtərəfli hökmlər də az olmamışdır, lakin həmin məsələləri, xüsusilə, öz dövrü üçün qiymətli edən və bu gün də onlara qarşı maraq doğuran başlıca cəhət budur ki, S.Hüseynin "Ölülər" pyesinin cəsarətliliyi, ideyamübarizliyi və mənalılığı haqda əsas mülahi-zələri, tamaşa barədə dövrün qabaqcıl ictimai-ədəbi cəbhəsinin məlum qənaəti ilə səsləşirdi. Tənqidçi "Ölülər"i V.Hüqonun "Səfillər"ilə müqayisə edərək yazırdı ki: "...bir əsr bundan əvvəl Fransa əhvali-ictimaiyyəsində "Səfillər" nə isə, Viktor Hüqonun ac və "səfil arvad-uşaqları və küçələrdə yaşayan sahibsiz" külxanbəyiləri cəmiyyəti-bəşəriyyəyə və Fransa əfkarına nasıl təsir bağışlamışsa, bizdə "Ölülər"... elə təsir oyatmışdır.(9;1 may 1916)

Bu müqayisə komediyaya verilən yüksək dəyərin göstəricisi idi.

S.Hüseyn Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri ilə "Molla Nəsrəddin" məcmuəsinin ideya əlaqəsini də düzgün hiss etmiş, pyesin "Molla Nəsrəddin"in mübarizəsini daha qüvvətlə davam etdirdiyini göstərmişdir: "Ölülər" pyesi də həmin "Molla Nəsrəddin"in gördüyü işi daha qüvvətli bir surətdə görmüş oldu" (10;2 may, 5 may 1916). Bu fikirlərin bir əhəmiyyəti də onda idi ki, onlarda mütərəqqi tənqidin "Molla Nəsrəddin" jurnalına da münasibəti öz aydın ifadəsini tapırdı. Həqiqətən "Ölülər" "Molla Nəsrəddin"in qəti, fəal, öldürücü satira ilə ifadə olunmuş mövqeyi idi. Böyük arzularla vətənə qayıdan İskəndər qaranlıq Kərbəlayılar, Hacı Həsənlər, Şeyx Nəsrullahlar mühiitində bir işıq üzü görmür və tamamilə ümidsizliyə qapılır. İskəndərin ümidsizliyində, əlbəttə, C.Məmmədquluzadənin ümidsizliyini görmək səhv olardı. Yazıçının mövqeyi işıqlıdır, o, əsərdə Nazlı, Cəlal kimi gənclərin surətini yaradır və xalqın gələcəyinə ümidlə baxır. "Artıq o dərəcədə məharətlə yazılmış, məzmunu eynən həyatımızdan götürülmüş, ideyası inqilablıbu dram müsəlmanların həyatında böyük rollar oynayacaqdır, paslanmış beyinləri pasdan təmizləyib, ölmüş ruhlara can verəcəkdir" (10;2 may, 5may 1916). Elə bu inqilabi ideyasına görə də mühafizəkar cəbhə "Ölülər"i bütünlükdə qəbul etmirdi və pyesi də məhz bu mövqedən tənqid edirdi. Bu cəbhəyəmənsub

---

42 Filologiya üzrə fəlsəfə doktoru

tənqidçilər "Ölülər" əsərinin ideyasını, ictimai mahiyyətini, mətləbini, demək olar ki, tamamilə bəsitləşdirirdilər. "Seyirçi" imzası ilə yazılmış məqalədə (14; 2 may 1916) tənqidçi "Ölülər"in məzmunundan bəhs edərkən əsas fikrini Şeyx Nəsrullahın hiylələrinə, siğə oxumağına verir, əsərin kulminasiya nöqtəsi olan qəbristanlıq və ölü diriltmək səhnəsini isə az əhəmiyyətli bir hadisə kimi mötərizədə qeyd edir. Müəllif fikrini bu sözlərlə ümumiləşdirir: "...nədən isə mühərrir əfəndi bu qədər geniş bir temanı yalnız ölü diriltmək və siğə etmək kimi hiylələrlə ikmal etmiş. Halbuki, bunlardan daha şiddətli hiylələr mövcuddur ki, göstərilsə idi daha ziyadə müvəffəqiyyət əldə edilə bilərdi". (14;2 may 1916) Tənqidçi bu iradları ilə əsərin ideya mənasını məhdudlaşdırır, nəzərləri əsərdə qoyulan mühüm ictimai məsələlərdən uzaqlaşdırırdı.

Mühafizəkar tənqidçiləri narahat edən əsas məsələ "Ölülər"in ədəbi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanması idi. Belə tənqidçilərdən biri Oruc Orucov pyesin Viktor Hüqonun, Qoqolun əsərləri ilə müqayisəsini düzgün hesab etmir, "...bir "Ölülər" faciəsi "bütün pisliklərimizi" heç bir zaman meydana qoyub şərh edə bilməz", "...bir faciə nə dərəcədə "sənətkaranə və ustadanə" tərtib edilmiş isə də, yenə də heç bir millətin həyatında "inqilabi" rollar ifa etdiyini tarix göstərməyir" (12; 3 may 1916) yazırdı. Tənqidçi daha sonra Nəriman Nərimanovun pyes haqqındakı fikrini təhrif edərək göstərirdi: "Bu drama müsəlmanların həyatında böyük rollar oynayacaq və paslanmış, ölmüş ruhlara can verəcək" demək böyük xətadır".(12;3 may 1916)

Elə o zaman dövrün tənqidi bu sözlərə biganə qalmamış, "Ölülər" haqqında söylənilən bu yanlış fikirləri rədd etmişdir. "Ədəbi əsərlərin tarixdə nasıl inqilablar törətdiyinə cavab verməyi artıq bilirik. Zira bir çox inqilabların mənbəyi aranılsa və əsbabi-mövcibəsi tədqiq edilsə, ədəbi əsərlərin buna nə qədər təsirləri olduğu anlaşılır".(15; 2 may, 5 may 1916)

Mühafizəkar tənqidçilər təkcə "Ölülər"in ideyasına qarşı deyil, həmçinin İskəndər surəti vasitəsilə onun realizmi əleyhinə çıxır, pyesin qiymətini heçə endirməyə çalışırdılar. Onlar İskəndər surətinin qeyri-təbii, inandırıcı olmadığını yazırdılar: "İştə yuxarıdan aşağı zikr edilən sözlərə diqqətlə baxılacaq olursa, bu cümlələr oylə bir silsiləvarı irad olunur ki, əsla bir sərxoş ağzından çıxan sözlərə bənzəməyir. Zira bir sərxoş nə qədər müqtədir olsa da, bu dərəcədə mahiranə nəsaehdə bulanamaz, bu isə qeyri-təbii bir hal kəsb edər".(12;3 may 1916) "O halda nədən böylə aqilanə sözləri bir sərxoşun ağzından eşitməyə məcbur qalırız. Yəni bizə yol göstərən və nəsihət edən bir sərxoş olmuş olur. Daha doğrusu, sərxoşluqda heç bir nöqsan mövcud deyilmiş! Halbuki sərxoşluq özü də ayrıca bir tənqidə möhtacolduğu kimi bir rəzalət deməkdir. Çünki sərxoşluq özü mühüm qüsurlardanədd edilməlidir".(12;3 may 1916) Buna əlavə olaraq: "...əgər sərxoşluq aləmi təbii olaraq aqilanə sözlər və ifadələr bəyan etməyə münasib isə, o zaman əvvəlinci pərdədə söylənən sözləri də aqilanə hesab edəlimmi? Bu kitaba verilən bir manatı raqiyə verib içsəydim, bundan yaxşı edərdim. Bənə oxu dedilər, adam ol demədilər".(12;3may 1916) – deyə bu iradlara qarşı susmur, haqlı olaraq İskəndərin müdafiəsinə qalxır, müəllifin realizm cəbhəsindən çıxış etdiyini sübuta çalışırdı: "...kefli İskəndər rolunda, daha doğrusu, "Ölülər" qəhrəmanında xilafi-həqiqət heç bir şey yoxdur. Burasına müəllifin ayrıca əhəmiyyət verdiyi anlaşılır".(15; 2may, 5 may 1916) Bu sətirlərin müəllifi Seyid Hüseyn öz tərəf müqabilini realist sənətin prinsiplərini başa düşməməkdə taqsırlandırır, İskəndəri sadəcəbir kefli kimi başa düşməyin sadəlövhlük olmasını sübuta çalışırdı. Məqalədə "həqiqiyyun-realizm" termini işlədilir və ona estetik meyar kimi hörmət etməyə çağırılırdı.

"Ölülər"in fəal müdafiəçilərindən olan Hacı İbrahim Qasımov İskəndərin kefliliyinin əsil səbəbini aydınlaşdıra bilməmiş və özü də İskəndəri adi kefli kimi qəbul etmişdir: "Çünki kefli İskəndərin o halətini görən tamaşaçılar keflilik sayəsində insanın adama bənzəmədiyini hiss edirlər. Bir də kefli İskəndər: "Mən heç, mən bədbəxtəm və heç bir şeyə iqtidarım yoxdur" – sözünü deyirdi. O, bir qədər də irəliləyib özünü vaqiən ölü hesab edirdi və deyirdi ki, "Ya Şeyx, hərgah sən ölünü diriltməyi bacarırsansa, buyur, məni dirilt, çünki mən də ölüyəm". Bundan görünür ki, Şeyx hiyləsinə uyan avam camaat ölü isə, mey aludəsi olan bir intelligent də ölüdür". (7; 7 may 1916) İskəndər ölü deyil, "sərxoş İskəndər əsərdə ən ayıq adamdır" (C.Cəfərov). "Ölülər" komediyasının ilk tamaşasından bəhs edən Abbas Zamanov (1; 1957, №1) "Ölülər" əsərinə xüsusi monoqrafiya həsr etmişdir.

C.Məmmədquluzadə "Ölülər" əsəri ilə feodal-patriarxal həyatın qüsurlarının mahiyyətini real bədii lövhələrlə çəkir, fanatizm həddinə çatan dini təəssübkeşliyi həmin mühitin başlıca səciyyəsi, atributu kimi göstərirdi. İskəndər surəti də bu mühitin amansız tənqidində, öldürücü ifşasında əsas bədii vasitə idi.

"Ölülər" "Molla Nəsrəddin" kimi baltanı dibindən vuran bir əsərdir" (Ü.Hacıbəyov).

"Ölülər"i təkcə komediya adlandırmaq olmaz. Onda böyük faciələrə, qüvvətli dramalara xas olan keyfiyyətlər də vardır". (4; 29 may 1956)

"İskəndərsiz "Ölülər" saf bir məzhəkə ola bilərdi. İskəndərli "Ölülər" isə dramatik ünsürlərə malik bir məzhəkədir. Mirzə Cəlilin həm məzhəkələrində, həm də dramlarında janr qarışıqlığı vardır". (5;46)

"O tragediya deyil, komediya yazmışdır. Lakin onun böyüklüyü ondan ibarətdir ki, surətlərin arxasında gizlənən həyati faciəni, dəhşətli həqiqəti görə bilmişdir".(3; 138)

C.Məmmədquluzadə özü də avtoqrafında (2; 606) əsərini faciə adlandırmışdı.

Bizcə, "Ölülər" komediyadır, çünki, əsər ona görə faciə deyil ki, faciə janrında tələb olunan şəxsiyyətlə cəmiyyət arasındakı konflikt əsərdə müşahidə olunmur. Əsərin qəhrəmanı İskəndər açıq mübarizə etmir. İskəndərin sərxoşluğu əslində mühitin eybəcərliyinə qarşı ən güclü etiraz idi, çünki bu sərxoşluq belə həmin mühitlə barışmazlıqdan irəli gəlirdi. Odur ki, İskəndər ölülər dünyasında hər hansı bir mövqeyi, rütbəni deyil, ifşaçı rolunu seçir. Ətrafındakı dəhşətli nadanlığı, cəhaləti görən İskəndər "cəhalətin tünd qaranlığına qərq olmuş bu dözülməz, cansıxıcı mühit"lə (H.Minasazov) barışa bilmir. Qəhrəmanın mövqeyinin barışmazlığı onun ən böyük mübarizliyi idi. İskəndərin faciəsinin böyüklüyü də elə bundadır. "Ölülər"də faciə üçün əsas olan qəhrəmanın aqibətinecə olacaqdır sualı meydana çıxmır. Burada elə əvvəldən qəhrəmanın aqibəti məlumdur. O, Şeyx Nəsrullahların, Hacı Həsənlərin mühitində köməksizdir. Müəllifin ustalığı ondadır ki, komik şərtiliyin arxasında həyat həqiqətini bütün kəskinliyi, təbiiliyi ilə, "ustadanə bir qələmlə" (H.İ.Qasımov) verə bilmişdir. Hüseyn Cavidin dediyi kimi: "Ölülər"in hər təbəssümündə acı bir fəryad qopur". "Ölülər"də keyfiyyət çevrilməsi baş verir, komediya öz çərçivəsinə sığmır. "Beləliklə, dramaturq komediya içəriisində faciə, çılğın qəhqəhələr içərisində göz yaşı yaradır". (11; 292) Janrın nəzəriyyəsində də komediyaya belə bir münasibət görünür. Komediyada dramatik elementlərə istənilən qədər təsadüf etmək mümkündür. Lakin janr həmin elementlərə görə müəyyənləşdirilmir. Janr barədə biz əsas elementlər, konflikt, müəllifin öz qəhrəmanına necə münasibət bəsləməsi əsasında mühakimə yürüdürük. Əgər həmin qəhrəmanlar müəllifin qəlbində kinayə hissi oyadırsa, əgər o, qəhrəmanlarını gülüş hədəfinə çevirirsə, bu zaman dramaturq pyesinə dram və faciə ünsürləri daxil etsə

belə, onun əsəri məzhəkə kimi səslənəcəkdir. Təsadüfi deyil ki, "Ölülər" haqqında geniş tədqiqat əsəri yazmış H.Israfilov da doğru olaraq bu nəticəyə gəlir ki "Ölülər" klassik satiranın bariz nümunəsidir". (8;75)

"Ölülər" Azərbaycan komediyası tarixində öz bədii quruluşu və ideya məzmunu cəhətdən o qədər yeni, novator və mürəkkəb bir əsər idi ki, zəmanəsinin ən mütərəqqi tənqidçiləri belə onu obyektiv qiymətləndirmək, təhlil etməkdə müəyyən çətinliklərlə qarşılaşıblar.

Öz kəskin dramatizmi, emosional təsir qüvvəsi, milli-mənəvi xüsusiyyətlərin dəqiq ifadəsi, psixoloji tutumu, sənətkarlığı baxımından Azərbaycan dramaturgiyasının şedevri sayılan bu əsərin səhnəyə qədəm qoyduğu ilk gündən həm teatr, həm də ədəbi tənqidin ən geniş polemika meydanını dövrümüzə qədər heç bir milli dram nümunəsinə güzəştə getməmişdir.

Ədəbiyyat siyahısı

1. Abbas Zamanov. "Ölülər" komediyasının ilk tamaşası. "Azərbaycan" jurnalı, 1957, №1
2. Cəlil Məmmədquluzadə. Əsərləri, I c., Bakı, 1966, s.606
3. Cəfər Cəfərov. Azərbaycan Dram Teatrı, Bakı, 1959, s.138
4. Cəfər Xəndan. "Ədəbiyyat və incəsənət" qəzeti, 29 may 1956
5. Əli Sultanlı. Azərbaycan dramaturgiyasının inkişaf tarixi (dissertasiya), səh 46
6. Hacı İbrahim Qasımov. "Ölülər" haqqında, "Açıq söz" qəzeti, 2 may 1916-cı il
7. Hacı İbrahimov. "Ölülər" haqqında, "Bəsirət" qəzeti, 7 may 1916-cı il, №94
8. Hüseyn İsrafilov. "Ölülər", Bakı, 1966, s.75
9. Kazımoğlu. "Ölülər" haqqında təəssürat, "Açıq söz" qəzeti, 1 may 1916-cı il, №173
10. Kazımoğlu. "Ölülər"haqqında təəssürat", həmçinin bax: Seyid Hüseyn. "Ölülər" və onun tənqidləri haqqında bir mütaliə. "Açıq söz" qəzeti, 2 may 1916-cı il, №176, 5 may 1916-cı il, №177
11. Məmməd Cəfər. Seçilmiş əsərləri, I c., Bakı, 1966, s.75
12. Oruc Orucov. "Ölülər" haqqında bir mülahizə". "Yeni iqbal" qəzeti, 3 may 1916-cı il, №298
13. "Олиляр" – Мертвецы. «Закавказье» qəzeti, 11 sentyabr 1909-cu il, №176
14. Seyirçi. "Ölülər", "Yeni iqbal" qəzeti, 2 may 1916, №297
15. Seyid Hüseyn. "Ölülər" və onun tənqidləri haqqında bir mütaliə. "Açıq söz" qəzeti, 2 may 1916-cı il, №176, 5 may 1916-cı il, №177

Açar sözlər:"Ölülər" komediyası, dövri mətbuat, satira, teatr, tənqid
Ключевые слова: комедия «Мертвецы», периодическая печать, сатира, театр, критика
Key words: comedy "The dead", periodicals, satire, theater, criticism

Пьеса «Мертвецы»Дж.Мамедкулузаде в зеркале литературной критике своего времени

Резюме
В статье даются анализ и оценка сложного и противоречивого отношения азербайджанской критики начало XX в.к пьесе Дж.Мамедкулузаде «Мертвецы», в частности к образу главного героя произведения – Искендера.
Вместе с тем в ней подробно освещается деятельность таких выдающихся критиков, как Г.Минасазов, С.Гусейн, Г.И.Гасымов, О.Ориджов, и акцентируется внимание на тех их воззрениях, которые не привлекались к исследованиям.

The play "The Dead" by J.Mammadguluzadeh in the mirror of the literary criticism of his time

Summary
The article provides an analysis and assessment of a complex and controversial attitude at the beginning of the 20th century, to J.Mammadguluzadeh's play "The Dead", in particular, to the image of the main character, Iskender.
At the same time, it highlights the activities of such eminent critics as T.Minasazov, S.Gusein, H.I.Gasimov, O.Orujev in details, and focuses on those views that have not been involved in research.

Rəyçi: dos.Nəsibova Hicran